Ədəbiyyat qəzeti

6 noyabr / 2021

# Səfirlikdə təqdimat



Yaxın zamanlarda Qırğızıstan Respublikasının Azərbaycan Respublikasına təyin edilmiş fövqəladə və səlahiyyətli səfiri, hüquq elmləri doktoru, professor Kayrat Osmonəliyev şair, manasşünas alim Adil Cəmili qəbul etmişdir. Səmimi görüş zamanı səfir "Manas" eposunun tərcümə və tədqiqində illərdən bəri göstərdiyi xid-




mətlərə görə milləti, dövləti adından A.Cəmilə dərin təşəkkürünü bildirmiş, Qırğızıstan Respublikası müstəqilliyinin 30 illiyi münasibətilə təsis edilmiş "Çingiz Aytmatov" medalı ilə onu mükafatlandırmışdır.

Söhbət zamanı iki xalqı eyni kökə bağlayan mənəvi bağlantılar, siyasi, mədəni və iqtisadi sahədə görüləcək işlər barədə də müzakirələr gündəmə gəlmiş, belə bir əməkdaşlığa ciddi ehtiyacın olduğu vurğulanmışdır.

Adil Cəmil də yenicə fəaliyyətə başlayan diplomat Kayrat Osmonəliyevi bir daha təbrik edərək elmi, ədəbi yaradıcılığına verdiyi dəyərə görə ona öz minnətdarlığını bildirmişdir.